Təhsil Nazirliyi "Zəfər ilinin müəllimi" adlı layihəyə start verir. Layihə bu ilin sonunadək davam edəcək.

Sözügedən layihə çərçivəsində Təhsil Nazirliyinin internet resurslarında 44 günlük Vətən müharibəsində döyüşən, o cümlədən şəhid olan müəllimlərimiz haqqında posterlərin, yazı, müsahibə, videosüjetlərin hazırlanaraq *#ZəfərİlininMüəllimi* həştəqi altında yayımı nəzərdə tutulur.

Bundan əlavə, hər kəs layihəyə uyğun olaraq sosial şəbəkələrdə *#ZəfərİlininMüəllimi* həştəqi altında müvafiq paylaşımlar edə bilər.

Qeyd edək ki, layihənin məqsədi Vətən müharibəsi iştirakçısı olmuş müəllimlərin geniş ictimaiyyətə tanıdılmasıdır.